**May 21, 2008 19:04**
**MƏNBƏ: AZERIBLOG**

**Bakı-Tiflis-Qars dəmir yolunun Gürcüstan hissəsinin tikintisinə cəlb ediləcək işçilərin 70%-i azərbaycanlılar olacaq**

Bakı-Tiflis-Qars (BTQ) yeni dəmir yolu layihəsi çərçivəsində Gürcüstan ərazisində aparılan dəmir yolu tikintisində çalışan işçi heyətinin 70%-i bu ölkədə yaşayan azərbaycanlılar olacaq. Bu barədə layihənin podratçısı «Azərinşaatservis» MMC-nin marketinq meneceri İlkin İmaməliyev məlumat verib.

İ.İmaməliyevin sözlərinə görə, tender müqaviləsində podratçı şirkətin tikinti aparılan ərazidə yaşayan vətəndaşları işə götürməsi barədə müddəa olmayıb.

Şirkət nümayəndəsi «Azərinşaatservis» MMC-nin Axalkələkdə yaşayan Gürcüstan ermənilərini dəmir yolunun tikintisində işə götürülməsi barədə məlumatı təkzib edib.

Qeyd edək ki, «Azərinşaatservis» MMC BTQ-nin Axalkələkdən Gürcüstanın Türkiyə sərhədində yerləşən Kartsaxi məntəqəsinə qədər 29 km məsafədə dəmir yolunu inşa edəcək.

Xatırladaq ki, BTQ-nin tikintisi ilə bağlı Azərbaycan, Gürcüstan və Türkiyə arasında yekun sənəd 2007-ci il fevralın 8-də Tiflisdə imzalanıb. Yeni dəmir yolunun tikinti işlərinə 2007-ci il noyabrın 21-də start verilib. Azərbaycan yolun Gürcüstan ərazisinə düşən hissəsinin tikintisi üçün bu ölkənin «Marabda-Kartsaxi Dəmir Yolları» Məhdud Məsuliyyətli Cəmiyyətinə güzəştli şərtlərlə (illik 1%-lə 25 illiyə) 200 mln. ABŞ dolları məbləğində kredit ayırıb. Bu vəsait hesabına Gürcüstan ərazisində 29 km uzunluğunda yeni yol, Türkiyə ilə sərhəddə təkər dəyişmə məntəqəsi tikiləcək, həmçinin köhnə yol rekonstruksiya olunacaq. Layihənin ümumi dəyəri isə 600 mln. dollardan artıqdır.

Dəmir yolunun 2011-ci ilin ortalarına qədər istifadəyə verilməsi planlaşdırılır. Türkiyə ərazisində isə Gürcüstanla sərhəddən Qarsa qədər uzunluğu 76 km olan yeni dəmir yolu xətti tikiləcək.